Xacə
Nəsirəddin Tusi

# ƏXLAQİ-NASİRİ

Farscadan tərcümə edən,
müqəddimə və şərhin müəllifi:
Rəhim Sultanov

qanun nəşriyyatı

Əsrlər boyu Orta və Yaxın Şərqdə mənəviyyat və əxlaq qaynağı hesab olunan “Əxlaqi-Nasiri” kitabında Nəsirəddin Tusinin insan, ailə, cəmiyyət, əxlaq, din, ictimai münasibətlər barədə dolğun təsəvvürləri, etik-fəlsəfi fikirləri yer alıb. Kitab müasir cəmiyyət həyatında aktuallığını itirməyən mövzulara diqqət çəkmək baxımından müstəsna əhəmiyyət daşıyır.

**Xacə Nəsirəddin Tusi ƏXLAQİ-NASİRİ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 400 səh.

Janr: elmi-kütləvi
Ölçü: 130x200 mm
Cild: qalın
Çapa imzalandı: 13.08.2024

Naşir: Şahbaz Xuduoğlu
Farscadan tərcümə edən,
müqəddimə və şərhin müəllifi: Rəhim Sultanov
Korrektorlar: Elçin Alyar
Nigar Məmməd
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Günay Seyidli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-904-5

© Qanun Nəşriyyatı, 2020; 2024
© Elm nəşriyyatı, 1989

# XACƏ NƏSİRƏDDİN TUSİ VƏ ONUN “ƏXLAQİ-NASİRİ” ƏSƏRİ

Qədim və orta əsrlərdə yaşayıb-yaratmış Şərq alim, şair və dövlət xadimlərinin hərəsinin özünəməxsus cəhətləri, müəmmalı və sirli tərəfləri, ziddiyyətli və mübahisəli məsələləri vardır. Çoxlarının anadan olduqları il, yer məlum olmur və ya mübahisə doğurur, adlar, ləqəblər qarışır, əsərlər dolaşıq salınır, siyasi baxışlar, fəlsəfi istiqamətlər tez-tez dəyişir, nöqteyi-nəzərlər toqquşur, bunun nəticəsində müxtəlif fikirlər, fərqli mülahizələr meydana çıxır. Şəxsiyyət nə qədər böyük olursa, ziddiyyətlər də o qədər çox olur. Qədim və orta əsrlərdə elə bir görkəmli alim, şair və filosof göstərmək çətindir ki, onun haqqında yuxarıda göstərilən baxımdan münaqişəyə səbəb bir məsələ olmasın. Belə bir vəziyyətin yaranmasının səbəbi çoxdur, lakin başlıcası etibarlı sənəd yoxluğu, bəzən ləqəb və adların yaxınlığı, orijinal əsərlərin məhv olub aradan getməsi, dəqiq təyin edilmiş həqiqətlər əvəzinə rəvayətlərin hökm sürməsi, əlyazmalarını köçürən katiblər tərəfindən buraxılan səhvlər və təhriflər, ya başqa səbəblər üzündən qəsdən, dövrün tələbinə uyğun olaraq tarixi faktların saxtalaşdırılması və sairədir. Bunlar və buna oxşar amillər Şərqin tədqiqi ilə məşğul

olanlar qarşısında böyük maneələr yaradır. Həqiqəti ortaya çıxarmaq üçün böyük əmək tələb olunur, bəzən isə son dərəcə ziddiyyətli məxəzlər və faktlar içərisindən doğrunu tapıb ortaya çıxarmaq mümkün olmur, əksinə, məsələ bir az da dolaşdırılır.

Elm isə belə dolaşıqlığa düşə-düşə, dolaşıqları aça-aça irəliləyib, inkişaf edir.

Tusi həyatı, Tusi yaradıcılığı da belə ziddiyyətli, dolaşıq məsələlərlə doludur. Hər şeydən əvvəl, onun anadan olduğu yer mübahisəlidir.

Müasir İran ədəbiyyatşünası prof. Cəlaləddin Hümai 1969-cu ildə nəşr etdirdiyi "Xacə Nəsirəddinin əməli hikmətə baxışı" adlı kitabında göstərir ki, Tusi Firdovsinin, Şeyx Tusinin, Qəzalinin, Nizamülmülkün, Şeyx Əbu Cəfərin vətəni Tus şəhərində anadan olmuş, ona görə də "Tusi" ləqəbi ilə şöhrət tapmışdır.

Bir rəvayətə görə, Xacə Nəsirəddinin Tus şəhərində deyil, İranın qərbində yerləşən Həmədan yaxınlığında "Bahar" adlanan bir nahiyədə anadan olduğu, sonradan Tusa getdiyi üçün "Tusi" ləqəbi aldığı; başqa bir yerdə Savanin Cəhrud kəndində doğulduğu sübuta çalışılır, üçüncü bir məxəzdə isə Qumda anadan olduğu təsdiq edilir.[1]

Tusinin ləqəbi, özünün, atasının, babasının, qohum-əqrəbasının adı haqqında da bir-birinə uyğun gəlməyən məlumatlara təsadüf edilir. Biri onun ləqəbinin, sadəcə olaraq, Nasir, digəri "Nəsirəddin" olduğunu yazır. H.Məmmədbəylinin dediyinə görə, bir çox Azərbaycan yazıçı və tarixçiləri, o cümlədən Mirzə Fətəli Axundov, Molla Vəli Vidadi və başqaları[2] onu, sadəcə olaraq, Nəsir Tusi adlandırmışlar.

---

[1] Nəsirəddin Tusinin azərbaycanlı olması haqqında. Bax: H.Məmmədbəyli. Nəsirəddin Tusi, Bakı, 1957, səh. 45-54; "Основатель Марагинской обсерватории Насиреддин Туси", Баку, 1961, стр. 23-33.

[2] Göstərilən əsər (rus dilində), səh. 24.

Maraqlı burasıdır ki, Tusi "Əxlaqi-Nasiri" kitabının müqəddiməsində də özünü Nəsirəddin Tusi deyil, Nəsir Tusi adlandırır. Tusinin adı, ləqəbi, nəsəbi, künyəsi müxtəlif dövrlərdə, ayrı-ayrı məxəzlərdə müxtəlif şəkillərdə yazılmış, bəzən əvvəlcə atası – Məhəmmədin, babası – Həsənin adı deyilir, bəzən "Nəsirəddin" sözündən əvvəl "Əbu Cəfər" də əlavə edilir. Tusi yaradıcılığının ardıcıl tədqiqatçılarından fizika-riyaziyyat elmləri doktoru H.Məmmədbəyli "Əbu Cəfər" ləqəbinin haradan əmələ gəldiyini hələlik aydınlaşdırmaq mümkün olmadığını qeyd edir[1] və Tusinin tam ad, ləqəb, əsil-nəsəbini belə yazır: "Əbu Cəfər Məhəmməd İbn Həsən Nəsrəddin (Nəsir) Tusi".[2] Başqa məxəzlərdə bu ləqəb, ad və əsil-nəsəblər bəzən azalır, bəzən də çoxalır. Birində "Əbu Cəfər" ixtisara düşür, bəzilərində "Xacə" sözü əlavə edilir. Əsərlərini daha mötəbər göstərmək üçün isə bir sıra müəlliflər bu adlar sırasına Tusinin ulu babası Əbu Bəkr və ya Əbu Bəkrin adını da artırır və tam şəkildə belə yazırlar: Əbu Cəfər Nəsrəddin Məhəmməd bin Məhəmməd bin Həsən Əbu Bəkr.

Tusinin neçə il yaşadığı barədə də Avropa və Şərq məxəzlərində müxtəliflik nəzərə çarpır. Avropa məxəzlərində onun 73 il yaşadığı göstərildiyi halda (1201-1274), Şərq məxəzlərində bu rəqəm 74 il (1200-1274) yeddi ay və yeddi gün kimi göstərilir.[3]

Bütün bu ixtilaf və ziddiyyətlərə baxmayaraq, Tusi istər öz dövründə, istərsə də bütün tarix boyu Şərqin ən istedadlı, nüfuzlu, görkəmli və çoxcəhətli bir alimi kimi həmişə diqqət mərkəzində olmuş, həm müasirləri, həm də müaqibləri onun haqqında çox yüksək fikirlər söyləmişlər, istər sağlığında, istərsə də vəfatından sonra onun şöhrəti get-ge-

---

[1] Yenə orada.

[2] دکتر زهرا خانلری (کیا)، «رهنمای ادبیات فارسی» تهران ۱۲٤۱ شمس ص ۳۹۰.

[3] جلال‌الدین همایی، «حکمت‌عملی از نظر خواجه‌نصیرالدین طوسی» تهران ۱۳٤۷ شمسی ص ٤.

də artmış, Tusi ləqəbi başqa alimləri kölgədə buraxmış, ehtimala görə, Əbu Cəfər ləqəbi də məhz belə bir şöhrət nəticəsində başqa bir Tusiyə, Şeyx Əbu Cəfər Məhəmməd ibn Həsəndən alınıb ona verilmişdir. Tarix boyu bu iki Tusi bir-biri ilə qarışıq salınmış, ləqəb, ad, ata və ya baba adının eyniliyi onların eyniləşdirilməsinə gətirib çıxarmış, həmişə də üstünlük Nəsirəddinə verilmişdir. Halbuki Şeyx Əbu Cəfər Tusi özünün təqribən adaş və nəsəbdaşı olan Nəsirəddin anadan olmamışdan 134 il əvvəl, yeni 1067-ci ildə vəfat etmişdir. Dövrünün ən böyük şeyxlərindən hesab edilən Şeyx Əbu Cəfər ibn Həsən Tusi Qurana təfsir yazmış, şəri ehkamları şərh etmiş, əxlaq və tərbiyəyə aid əsərlər miras qoyub getmişdir. Onun ən məşhur əsərləri, مصباح كبير، استبصار، كتاب التبيان، تهذب الاحكام ("Kitabit-Tibyan", "Misbahi-Kəbir", "İstibsar", "Təhzübul-ehkam") və s. Əbu Cəfər də Tusu tərk edərək 1016-cı ildə Bağdada köçmüş, sonra Nəcəfə gedərək orada məskən salmış və 1067-ci ildə burada vəfat etmişdir.

Bütün bunları nəzərə alaraq, biz bundan sonra Nəsirəddin Tusidən danışdıqda Əbu Cəfər ləqəbini işlətməyəcək, yalnız ən çox şöhrət tapdığı Nəsrəddin Tusi və ya sadəcə olaraq, Tusi deməklə kifayətlənəcəyik.

Tusinin anadan olduğu il haqqında da fikirlər müxtəlifdir. Tədqiqatçıların əksəriyyəti onun hicri-qəməri ilə 597 (miladi 1200-1201)-ci ildə cəmadiyələvvəl ayının 11-də şənbə günü səhər günəş çıxarkən anadan olduğunu qəbul edirlər. Lakin bəziləri, məsələn, Corci Zeydan, Brokkelman və başqaları Tusinin hicri-qəməri 607-ci ildə, yəni miladi 1210-11-ci ildə doğulduğunu yazırlar. Beləliklə, bizə Tusinin həyat və yaradıcılığı haqqında əksəriyyətin qəbul etdiyi aşağıdakılar məlumdur.

Nəsrəddin Tusi 1201-ci il fevral ayının 17-də Tusda anadan olmuş, hələ uşaqlıq çağlarından elmlə maraqlanmış, öz çalışqanlığı və səyi sayəsində müəllim və müdərrislərin

rəğbətini qazanmış, istedadı, hər şeyi tez qavramaq qabiliyyəti onların heyrətinə səbəb olmuşdur. İlk təhsilini atasından alan Nəsrəddin sonralar dövrünün ən şöhrətli müəllim və müdərrisi hesab edilən Fəridəddin Damadın yanında oxumağa başlamışdır. Fəridəddin öz dünyabaxışı ilə müasirlərindən xeyli fərqlənir, yalnız şəriət ehkamları deyil, yunan fəlsəfəsi, hind hikməti, fars mədəniyyəti, Azərbaycan incəsənəti ilə də yaxından maraqlanırdı. Görünür, bunun səbəbi Damadın müəlliminin azadfikirli Sədrəddin Sərəxsi, onun müəlliminin Gilani, Gilaninin müəlliminin isə dövrünün adlı-sanlı filosof və münəccimi Əbu Abbas Logərinin olmasıdır.

Bu sonuncu şəxs hikmət, məntiq, idrak nəzəriyyəsini məşhur Azərbaycan filosofu Bəhmənyardan öyrənmiş, Bəhmənyar isə Şərqin Aristoteli hesab edilən İbn Sirtanın tələbəsi olmuşdur. Beləliklə, biz Tusi yaradıcılığında silsilə təşkil edən bu müəllimlərin hamısının az-çox təsir izlərini müşahidə edirik. Tusi haqqında əsər yazan və tədqiqat aparan alimlər onun hələ gənc yaşlarından böyük biliyə, geniş məlumata, iti hafizəyə, müstəqil fikir və cəsarətli mühakimələr yürütməyə həvəs göstərən, ehtiraslı bir axtarıcı olduğunu qeyd edirlər. Onun sonrakı coşqun, narahat, iztirablı və başıbəlalı həyatı da bunu sübut edir.

Hələ ilk anlardan böyüklər məclisində oturub dini, fəlsəfi mübahisələrin şahidi olan balaca Məhəmməd Quran ayələrinin ziddiyyətli təfsiri, hikmət məsələlərinin bir-birini rədd edən əksli şərhini görərkən dərin düşüncələrə dalmaya bilməzdi.

Tusi ilk əsərlərindən biri olan və ona dünya şöhrəti qazandırmış “Əxlaqi-Nasiri” əsərində belə “məclislərin” uşaqlara nə qədər vacib olub, böyük təsir bağışladığından dərin bir rəğbətlə danışır. Bütün bunlar hamısı gənc Tusidə həqiqəti axtarmaq həvəsi doğurur və bizə elə gəlir ki, İs-